AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 46 (1446), 17 - 28 dekabr 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.

## Bakıda keçiriləcək dünya kuboku Tokio-2020-yə lisenziya xarakteri daşıyacaq

AGF TROPHY 2020
FIG World Cup in Rhythmic Gymnastics
Baku, Azerbaijan

2019-cu ildə uğurla təşkil edilmiş bədii gimnastika üzrə dünya və Avropa çempionatları da daxil 4 beynəlxalq yarışdan sonra Azərbaycan Gimnastika Federasiyası (AGF) gələn ildə də bu növ üzrə yarışlara hazırlaşır. Gimnastikanın ən zərif nümayəndələrinin yarışları ənənəyə uyğun olaraq apreldə keçiriləcək.

Aprelin 24-26-da təşkil ediləcək dünya kuboku turnirdə iştirak edəcək ölkələrin ilkin qeydiyyat siyahısı dekabrda bəlli olacaq. Bu turnirin iştirakçıları Olimpiadaya vəsiqə qazanmaq şansı əldə edəcəklər. Bakıda təşkil olunan dünya çempionatında "Tokio 2020"yə lisenziyasız qalan gimnastlar bu yarışlarda güclərini bir daha sınayacaqlar.

Yarışların ilk iki günündə təsnifat mərhələləri baş tutacaq və çoxnövçülükdə ən yüksək xal toplamış 8 fərdi gimnast, həmçinin qrup komandaları final mərhələsinə adlayacaqlar. Yarışın sonuncu günündə isə final mərhələsinin qalibləri müəyyənləşəcək.

Ənənəyə uyğun olaraq, turnirdə ən çox icra xalını yığmış gimnast və qrup komandasına ənənəvi "AGF Trophy" kuboku təqdim olunacaq.



## Cüdoçularımız "Masters" turnirini 2 medalla tamamladı

Çinin Cindao şəhərində cüdo üzrə "Masters" turniri keçirilib. Mötəbər turnirdə 67 ölkədən 445 cüdoçu mübarizə aparıb. Ölkəmiz yarışda 11 (8 kişi, 3 qadın) cüdoçu ilə təmsil olunub. Komandamız ilin son beynəlxalq yarışını 1 gümüş və 1 bürünc medalla başa vurub. Millimizə gümüş medalı 78 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən xanım idmançımız İrina Kindzerskaya qazandırıb. Fransa, Çin və Braziliya təmsilçilərinə qalib gələn cüdoçumuz yarımfinalda cənubi koreyalı Hayun Kimi məğlub edib. Həlledici görüşdə hollandiyalı Tessi Savelkoulsa məğlub olan təmsilçimiz gümüş medala sahib çıxıb. Komandamızın aktivinə bürünc medalı isə Olimpiya mükafatçımız Rüstəm Orucov (73 kq) qazandırıb. Cüdoçumuz ilk görüşdə Xikmatilox Turayevə (Özbəkistan) qalib gəlsə də, dörddəbir finalda israilli Butbur Tohara məğlub olub. Təsəlliverici görüşdə qüvvəsini sınayan R.Orucov əvvəlcə kanadalı Arthur Margelidonu mübarizədən kənarlaşdırıb. İdmançımız bürünc medal uğrunda görüşdə Kosovo təmsilçisi Akil Cakovla qarşlaşmalı olsa da, rəqibi zədə üzündən yarışa qatılmadığı üçün Rüstəm Orucov qalib elan edilib.



## Azərbaycan Atletika Federasiyasının nümayəndəsi beynəlxalq seminarda

Avropa Atletika Federasiyasının təşkilatçılığı ilə Serbiyanın paytaxtı Belqradda qadın idmançılar üçün seminar keçirilib. Seminarda ölkəmizi Azərbaycan Atletika Federasiyasının nümayəndəsi İradə Mehdiyeva təmsil edib. Avropa Atletika Federasiyasının İcraiyyə Komitəsinin üzvləri də seminarda iştirak ediblər. İyirmi üç ölkədən 25 nəfərin iştirak etdiyi seminarın məqsədi qadınları mentorluq sahəsində maarifləndirməkdən ibarət olub.



## ADBTİA-da elmi-praktiki konfrans keçirilib

*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında "Bədən tərbiyəsi və idmanda müasir elmi tədqiqat işlərinin inkişaf perspektivləri" mövzusunda professor-müəllim heyətinin elmi-praktiki konfransı keçirilib. Tədbirdə ölkənin tanınmış bədən tərbiyəsi və idman xadimləri, Akademiyanın professor-müəllim heyəti iştirak edib.*

(ardı 4-cü səhifədə)

## Anons

*Azərbaycan Basketbol Federasiyasının hesabat-seçki konfransı keçirilib*

Səh. 2

Yeniyetmə ağırlıqqaldıranların Avropa birinciliyinə yekun vurulub

Səh. 2

**Faiq Qarayev:**
"Biz istəyirik ki, KİV-lərlə daha yaxından təmasda olaq"

Səh. 3

*Sağlam həyat tərzi hər zaman öz aktuallığını qoruyur*

Səh. 5

"Bakılı qızlar"dan başlayıb, "Kəpəzə gedən yol"

Səh. 6

## Olimpizm

### Tokioda yeni Milli stadionun açılış mərasimi keçirilib

Dekabrın 15-də Tokioda gələn il Yaponiya paytaxtında keçiriləcək Yay Olimpiya və Paralimpiya Oyunlarının əsas idman arenası olacaq Milli stadionun təntənəli açılış mərasimi keçirilib. Yeni Milli stadionun tikinti işləri ötən ayın sonlarında başa çatıb.

Açılış mərasimində Yaponiyanın Baş Naziri Şinzo Abe, paytaxt prefekturasının qubernatoru Yuriko Koike, stadionun memarı Kenqo Kuma və digər rəsmi şəxslər iştirak ediblər.

Mərasimdə Ş.Abe bildirib ki, inşaat işləri başa çatdırılan stadionda idman tarixində yeni nailiyyətlərin qazanıldığı yarışlar keçiriləcək.

Xatırladaq ki, yeni stadion 1964-cü il Tokio Olimpiadası üçün inşa edilmiş əvvəlki idman arenasının yerində tikilib. Yeni obyektin tikintisinin ilkin mərhələsi Yaponiya cəmiyyətində qalmaqalla yaddaşlarda qalıb. Belə ki, stadionun memarı Böyük britaniyalı məşhur arxitektor Zaha Hadid olmalı idi. Lakin bir sıra yapon memarları və məmurlar bu layihənin çox baha olduğunu bildirərək onun əleyhinə çıxıblar. Nəticədə, aparılan müzakirələrdən sonra həmin layihədən imtina edilib. Yaponiya hökuməti tanınmış memar Kenqo Kumanın təklif etdiyi layihəni qəbul edib. K.Kumanın müəllifi olduğu layihə milli və ənənəvi yapon memarlığının xüsusiyyətləri nəzərə alınaraq hazırlanıb. Onun ekoloji təmizliyi və yerli landşafta uyğunluğu da bu layihəyə üstünlük verilməsinə səbəb olub.

Qeyd edək ki, tikinti işlərinə 2016-cı ilin dekabrında başlanılan yeni layihə nəzərdə tutulan xərcləri 2,1 milyard dollardan 1,4 milyardadək azaltmağa imkan verib. Yeni stadionun tamaşaçı tutumu da 80 mindən 60 minədək azaldılıb. Yeni stadionda Olimpiya Oyunlarının rəsmi açılış və bağlanış mərasimlərinin, həmçinin futbol və yüngül atletika üzrə yarışların keçiriləcəyi planlaşdırılır.

XXXII Tokio Yay Olimpiya Oyunları 2020-ci il iyulun 24-dən avqustun 9-dək keçiriləcək. Bu idman bayramının ümumilikdə 2 trilyon yenə (təqribən 17,8 milyard dollar) başa gələcəyi gözlənilir. Yeni stadionda keçiriləcək ilk kütləvi böyük idman tədbiri isə futbol üzrə İmperator kubokunun final mərhələsi olacaq.

### 2024-cü il Olimpiadasında serfinq yarışları Taitidə keçiriləcək

2024-cü ildə Parisdə keçiriləcək yay Olimpiya Oyunlarının Təşkilat Komitəsi serfinq yarışlarının Taiti adası sahillərində keçirilməsini qərara alıb.

Bu barədə Olimpiadanın Təşkilat Komitəsinin mətbuat xidmətinə istinadla məlumat verib.

Qeyd edək ki, Taiti Fransa Polineziyasının əsas adasıdır. Adadakı Teaxupoo kəndi serfinq yarışları keçirilməsi üzrə ən populyar yerlərdən biridir.

Təşkilat Komitəsinin mətbuat xidmətinin bəyanatında deyilir: "Olimpiya Oyunlarının Təşkilat Komitəsi serfinq yarışlarının keçiriləcəyi yer kimi Taiti adasındakı Teaxupoo kəndini seçib. Növbəti addım Beynəlxalq Olimpiya Komitəsi tərəfindən seçilmiş yerin yoxlanması olacaq".

Britaniyada çıxan "The Guardian" qəzetində bir qədər əvvəl dərc edilmiş məlumata görə, Taiti alternativ variant kimi nəzərdən keçirilirdi. Bu halda digər namizədlər kontinental Fransada yerləşən Bretani və ölkənin cənub-qərbində, Yeni Akvitaniyada yerləşən Biarrits şəhəri idi.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax iyul ayında bildirib ki, serfinq yarışlarının harada keçirilməsi barədə qərarı Fransa Milli Olimpiya Komitəsi qəbul edəcək, bununla belə, Baxın fikrincə, yarışları Parisə maksimum yaxın yerdə keçirmək lazımdır.

Serfinq yarışları ilk dəfə 2020-ci il iyulun 24-dən avqustun 9-dək Tokioda keçiriləcək yay Olimpiya Oyunlarının proqramına daxildir. 2024-cü il yay Olimpiya Oyunları isə, iyulun 26-dan avqustun 11-dək Parisdə keçiriləcək.

# Yeniyetmə ağırlıqqaldıranların Avropa birinciliyinə yekun vurulub

Xəbər verdiyimiz kimi, İsrailin Eylat şəhərində 15 və 17 yaşınadək yeniyetmələr arasında ağırlıqqaldırma üzrə Avropa birinciliyi keçirilib. Azərbaycan Ağır Atletika Federasiyasından verilən məlumata görə, qitə birinciliyində 37 ölkədən 498 idmançı (228 qız və 270 oğlan) qüvvəsini sınayıb. Yarışın ilk günündə üç atletimiz mübarizə aparıb. Körpücük üzərinə ilk olaraq yaşı 15-ə qədər olan qızlardan Aişə Əliyeva (40 kq) çıxıb. Atletimiz ümumilikdə 85 kq (36+49) nəticə ilə 6-cı yeri tutub. Sonra bu yaş qrupunda Selcan Qarayeva yarışıb.



O, 45 kq çəki dərəcəsində 121 kq (53+68) nəticə ilə 7-ci pillədə qərarlaşıb. Oğlanlardan körpücük üzərinə ilk olaraq yaşı 15-ə qədər olan atletlərdən Kənan Rəhimov çıxıb. O, 49 kq çəki dərəcəsində ümumilikdə 168 kq (70+98) nəticə ilə 6-cı yeri tutub. Növbəti yarış günündə yığmamızın üzvü Elşən Məmmədov yaşı 15-ə qədər olan atletlər arasında 61 kq çəki dərəcəsində qüvvəsini sınayıb. Atletimiz birdən qaldırma hərəkətində 106 kq nəticə ilə bu hərəkətdə gümüş medal qazanıb. Təkanla qaldırma hərəkətində 129 kq nəticə göstərən idmançımız bu hərəkətdə bürünc medala sahib olub. Ümumilikdə 235 kq (106+129) nəticə (toplamda yeni Avropa rekordu) ilə Elşən Məmmədov Avropa birinciliyinin qalibi adına layiq görülüb. Bu, onun ikinci belə nəticəsidir. Belə ki, Məmmədov ötən il İtaliyanın Milan şəhərində keçirilən Avropa birinciliyində də qızıl medal əldə etmişdi.

Komandamızın digər üzvü Rüstəm Qasımov birdənqaldırma hərəkətində 116 kiloqram nəticə ilə altıncı olsa da, təkanla qaldırma hərəkətində daha uğurlu çıxış edib. O, 144 kiloqramı ram edərək, bu hərəkətdə Avropa birinciliyinin bürünc medalına sahib olub. Atletimiz ümumilikdə 260 kiloqram (116+144) nəticə ilə yekun sıralamada beşinci pillədə qərarlaşıb.

15 yaşınadək atletlərin mübarizəsində Nurlan Məmmədzadə (73 kq) birdənqaldırma hərəkətində 115 kiloqram nəticə ilə beşinci yeri tutub. N.Məmmədzadə təkanla qaldırmada daha yaxşı çıxış edib. Atletimiz 145 kiloqramı ram edərək bu hərəkətdə Avropa birinciliyinin qalibi adını qazanıb. Yeniyetmə atletimiz bu çəkini qaldırmaqla, eyni zamanda, çıxış etdiyi yaş qrupunda bu çəki dərəcəsində təkanla qaldırma üzrə yeni Avropa rekordu müəyyənləşdirib. N.Məmmədzadə toplam 260 kiloqram (115+145) nəticə ilə yekun sıralamada ikinci yeri tutub.

15 yaşınadək atletlərin mübarizəsində 76 kiloqram çəki dərəcəsində çıxış edən Rahilə Hüseynova birdənqaldırma hərəkətində 75 kiloqram nəticə ilə dördüncü yeri tutub. İdmançımız təkanla qaldırma hərəkətində daha yaxşı çıxış edərək 97 kiloqramın öhdəsindən gəlib. R.Hüseynova bu hərəkətdə Avropa birinciliyinin gümüş mükafatçısı olub.

Ümumilikdə 172 kiloqram (75+97) nəticə ilə yekun sıralamada üçüncü yerə çıxan ağırlıqqaldıranımız bürünc medala layiq görülüb.

Yaşı 17-yə qədər olan atletlərin mübarizəsində 96 kiloqram çəki dərəcəsində Azərbaycanın iki atleti - Tarmenxan Babayev və Əli Şükürlü qüvvələrini sınayıblar.

Əli Şükürlü ümumilikdə 306 kiloqram (140+166) nəticə ilə yekun sıralamada 6-cı yeri tutub.

Tarmenxan Babayev birdənqaldırma hərəkətində 145 kiloqram nəticə ilə 4-cü pillədə qərarlaşıb. Atletimiz təkanla qaldırma hərəkətində daha yaxşı çıxış edib. O, 181 kiloqram nəticə ilə bu hərəkətdə 3-cü yeri tutaraq Avropa birinciliyinin bürünc medalını qazanıb.

T.Babayev ümumilikdə 326 kiloqram (145+181) nəticə ilə yekun sıralamada 4-cü yeri tutub.





## Azərbaycan Basketbol Federasiyasının hesabat-seçki konfransı keçirilib

Dekabrın 10-da Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında Azərbaycan Basketbol Federasiyasının (ABF) hesabat-seçki konfransı keçirilib. Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov,



Azərbaycan Basketbol Federasiyasının prezidenti Nadir Nəsibov, ABF-nin üzvləri və media nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Çingiz Hüseynzadə qonaqları salamlayaraq, sözü Azərbaycan Basketbol Federasiyasının prezidenti Nadir Nəsibova verib. N.Nəsibov Federasiyanın rəhbərliyi adından konfrans iştirakçılarını və qonaqları salamlayaraq onlara uğurlar arzulayıb.

Daha sonra Federasiyanın vitse-prezidenti Həsənağa Rzayev geniş hesabat məruzəsi ilə çıxış edib. H.Rzayev məruzəsində federasiyanın hesabat dövründəki fəaliyyəti, bu dövr ərzində qazanılan uğurlar və mövcud olan problemlər barədə ətraflı məlumat verib. O qeyd edib ki, uşaq basketbolunun dayanıqlı inkişafı və basketbol idman növünün kütləviləşdirilməsi günün tələbinə çevrilərək, ABF-nin əsas fəaliyyət istiqamətidir. Məhz bu məqsədlə Amerika Milli Basketbol Assosiasiyasının (NBA) dəstəyi ilə Azərbaycanda Junior NBA Liqasının keçirilməsi planlaşdırılır.

Sonra Məşqçilər Şurasının sədri Şəhriyar Əsgərovun, Nizam-İntizam Komissiyasının sədri Azər Ələkbərovun, Hakimlər Kollegiyasının sədri Ələkbər Həsənovun, Sosial media meneceri Aysel İsayevanın hesabat məruzələri dinlənilib.

Hesabat ətrafında gedən müzakirələrdə bildirilib ki, basketbol idman növündə görülən işlər göz qabağındadır, müsbət dəyişikliklər var, basketbol ölkəmizdə inkişaf etməkdədir. Müzakirələrin sonunda Azərbaycan Basketbol Federasiyasının hesabat dövründəki fəaliyyəti Konfrans iştirakçıları tərəfindən yekdilliklə qənaətbəxş hesab edilib.

Bundan sonra, ABF-nin rəhbər orqanlarının seçkiləri keçirilib. Növbəti dövrdə Federasiyaya rəhbərlik etmək üçün Nadir Nəsibovun namizədliyi irəli sürülüb. Konfrans iştirakçıları yekdilliklə Nadir Nəsibova səs verərək, onu yenidən Azərbaycan Basketbol Federasiyasının prezidenti vəzifəsinə seçiblər. Daha sonra konfrans iştirakçıları tərəfindən Azərbaycan Basketbol Federasiyasının Rəyasət Heyəti və digər rəhbər orqanlarının tərkibi müəyyən edilib.

Tədbirin sonunda çıxış edən gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov və Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə ölkəmizdə basketbol idman növünün inkişafında müsbət tendensiyaları qeyd edərək Federasiyanın bütün üzvlərinə gələcək fəaliyyətlərində növbəti qələbələr və uğurlar arzulayıb.

## Komandamız “Karate 1” Premyer Liqa turnirini 4 medalla başa vurdu



İtaliyanın Venesiya şəhərində gənclər arasında “Karate 1” Premyer Liqa turniri keçirilib. Azərbaycan Karate Federasiyasında verilən məlumata görə, dünyanın 65 ölkəsindən 3180 karateçinin mübarizə apardığı yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Yarışda baş məşqçilər Anar Allahverdiyev (kumite) və Vahid Ayvazovun (kata) rəhbərliyi ilə 14-15 yaşlı yeniyetmələr və 16-17 yaşlı gənclərdən ibarət yığmamız mübarizə aparıb. Komandamız nüfuzlu turnirdə 4 medal qazanıb. 16-17 yaşlı idmançıların yarışında təmsilçilərimiz Polina Qurenko (53 kq) və Ramil Baxşəliyev (55 kq) turnirin gümüş, Əminağa Quliyev (61 kq) isə bürünc medala sahib çıxıb. Digər karateçimiz Arina Bezrebra (+54 kq) isə 14-15 yaşlı yeniyetmələrin yarışında bürünc medala layiq görülüb.

## Klassiklərimiz hazırlıqlarını davam etdirirlər

Yunan-Roma güləşi üzrə yığmamız Belarusun paytaxtı Minskdə təlim-məşq toplanışını davam etdirir. Millimiz “Stayki” Olimpiya İdman Kompleksində yerli komanda ilə birgə hazırlıq keçir. Dekabrın 25-dək davam edəcək hazırlıq prosesində güləşçilərimiz baş məşqçi Aleksandr Tarakanov və böyük məşqçi Rövşən Bayramovun rəhbərliyi altında həm fiziki, həm də taktiki-texniki hazırlıq üzərində çalışırlar.

Xatırladaq ki, nümayəndə heyətinə Azərbaycan Güləş Federasiyasının yunan-Roma güləşi üzrə vitse-prezidenti Elçin Cəfərov rəhbərlik edir.

## “Olimpiya Hərəkatı” layihəsi çərçivəsində velosiped yarışları

Milli Olimpiya Komitəsi, Təhsil, Gənclər və İdman nazirlikləri, həmçinin Beynəlxalq Olimpiya Komitəsinin ümumdünya tərəfdaşı olan “Coca-Cola” şirkətinin birgə təşkilatçılığı ilə 7-8-ci sinif şagirdləri arasında keçirilən “Olimpiya Hərəkatı” layihəsi çərçivəsində Bakı üzrə velosiped yarışına yekun vurulub.

Respublika Velotrekində keçirilən final mərhələsində 12 məktəbin komandası iştirak edib.

Yarışın yekununa əsasən, Yasamal rayonu 308 nömrəli orta məktəbin komandası birinci yerə layiq görülüb. Xətai rayonu 29 nömrəli məktəbin şagirdləri ikinci, Nəsimi rayonu 111 nömrəli məktəbin təmsilçiləri isə üçüncü yeri tutublar.

Qeyd edək ki, reqlamentə əsasən 2 ay müddətində Bakı üzrə ümumilikdə 247 məktəbin 4000-ə yaxın şagirdi velosiped yarışlarında iştirak edib və rayondaxili seçimlərin yekunu olaraq final mərhələsinə heyəti 3 oğlan və 1 qız velosipeddən ibarət 12 komanda vəsiqə əldə edib.

# Faiq Qarayev:
## “Biz istəyirik ki, KİV-lərlə daha yaxından təmasda olaq”

*Azərbaycan Voleybol Federasiyasının birinci vitse-prezidenti Faiq Qarayev jurnalistlərlə görüşüb. Görüşdə son illərdə voleyboldakı vəziyyət, yeni inkişaf mexanizmi, gələcək planlar barəsində jurnalistlərə məlumatlar verilib.*



Faiq müəllim bir vaxtlar Azərbaycan voleybolunun yüksək səviyyədə olması ilə bağlı fikirlərə toxunub. “Voleybol üzrə Azərbaycan çempionatının bir neçə il bundan əvvəl hansı səviyyədə olduğunu hamımız yaxşı bilirik. Güclü klubların çıxış etdiyi çempionatımız Avropada üçüncü yerdə idi. Həmin vaxt buraya səviyyəli legionerlər gəlirdi. Bunun nəticəsində klublarımız və yığma komandamızı Avropa miqyaslı yarışlarda uğurlu çıxış etmiş və ən güclü rəqiblərdən sayılırdı. Ölkə çempionatında sonradan üç legionerin oynamasına icazə verdik. Bu sistem yerli oyunçuların inkişafına səbəb oldu. Həmin ərəfədə klublar arasında rəqabət yaranmışdı. Lakin həmin çempionat təəssüf ki, tezliklə zəiflədi. Komandalarda çıxış edən legionerlər ölkəmizi tərk etdilər. Hətta mili komandamızın üzvləri də Avropanın və dünyanın ayrı-ayrı klublarında çıxış etməyə başladılar. Nəticədə vəziyyət acınacaqlı oldu. Elə götürək, keçənilki çempionatı. Keçən il səviyyəsi aşağı olan ölkə çempionatı baş tutdu. Bunun da səbəbi klubların bağlanması ilə əlaqədar idi”.

Federasiyanın vitse-prezidenti yeni ildə planlaşdırılan məsələlərə də toxundu. Söhbət zamanı yeni məşqçilər korpusunun təyinatı da diqqət çəkib. “Yığma komandamızın baş məşqçisi Covanni Kaprara tanınmış və güclü mütəxəssislərdən idi. Lakin onun fəlsəfəsi yığma komanda ilə üst-üstə düşmədi. Nəticədə biz italiyalı baş məşqçi ilə yolları ayırmalı olduq. Artıq voleybol üzrə qadınlardan ibarət Azərbaycan milli komandasının yeni məşqçilər heyəti formalaşıb. Famil Ağayev, Vasif Talıbov və Eldar Yusubovdan ibarət məşqçilər heyəti yığmaya cəlb olunub. Mən özüm isə yığmada məsləhətçi olacağam. Çalışacağam ki, onlara bu işdə kömək edim. Gənc mütəxəssislərə mümkün qədər şərait yaratmalıyıq. Çünki bir vaxtlar bizə də belə bir imkan verilmişdi. Mən əldə etdiyim uğurlara görə həmin insanlara bu gün də minnətdaram. Yeri gəlmişkən qeyd edim ki, komandanın meneceri isə Oksana Parxomenko olacaq, - deyə Faiq Qarayev bildirib. Faiq müəllim kişilərdən ibarət komanda barəsində danışarkən bildirib ki, artıq federasiya klublara 3-4 legioner gətirməyə icazə verib. Lakin legionerləri mənsub olduqları ölkənin milli federasiyalarının icazəsi olmadan milliləşdirməyəcəklərini söyləyib: “Hər şey mümkündür. Amma həmin oyunçular öz istəkləri ilə Azərbaycan millisini seçməli, bu ölkəyə bağlanmalıdırlar. Klublarımız Cənubi Azərbaycandan kişi voleybolçular gətirmək istəyirlər. Mən isə İran Voleybol Federasiyası ilə razılaşdırdıqdan sonra onları gətirməyin mümkünlüyünü söyləmişəm. Bu başqa cür ola bilməz”.

Jurnalistlərlə görüşdə çempionatın təbliği ilə bağlı da Faiq müəllim maraqlı fikirlər səsləndirib. “Əvvəllər ölkə çempionatının gərgin və maraqlı keçdiyi vaxtlarda oyunları işıqlandıran KİV-lər yetərincə idi. Bu o demək deyil ki, indi voleybol mövzusu və xəbərləri KİV-də az yer alır. Biz çalışırıq ki, sizlər üçün hər şərait yaradaq. Çempionatın oyunları fərqli arenalarda keçirilir. Belə ki, qarşılaşmalar Hövsandakı FHN Arenasında, “Sərhədçi”də, Biləcəridəki “Lokomotiv”in zalında, Dərnəgüldə olacaq. Çalışırıq oyunları şəhərdən kənar qəsəbələrdə keçirək ki, oralarda da voleybola marağı artıraq. Finalları Heydər Əliyev İdman Kompleksində keçirəcəyik. Çempionat iki dövrəli, daha sonra pley-off sistemi ilə baş tutacaq. Arenalar arasındakı məsafələr çoxdur. Belə olduğu təqdirdə, jurnalistlər həm vaxt, həm də imkan baxımından çətinlik çəkirlər. Yeni ildən etibarən federasiya sizin üçün xüsusi avtobuslar ayırmağı düşünür. Hesab edirəm ki, bu həm sizin, həm də federasiyanın xeyrinə olacaq. Biz istəyirik ki, KİV-lərlə daha yaxından təmasda olaq. Voleybolun dirçəlməsi üçün bu da bir uğurlu addım olacaq”.

Görüşün sonunda Faiq müəllim, fürsət tapıb dəvəti qəbul edən KİV nümayəndələrinə öz minnətdarlığını bildirib.

*Anar Əhmədov*

# Beynəlxalq dərəcəli hakimimiz yeni təyinat alıb



Azərbaycanın beynəlxalq dərəcəli hakimi Konstantin Selin Avropa Voleybol Konfederasiyası (CEV) tərəfindən yeni təyinat alıb. Həmyerlimiz Çağırış kuboku yarışlarında mübarizə aparan Çexiyanın “Olimp” və Sloveniyanın “Calcit” komandaları arasında keçiriləcək görüşün ikinci hakimi olacaq. Oyunu rumıniyalı baş hakim Emil Mihai Rusinoiu idarə edəcək. Turnirin 1/16 final mərhələsinin ilk oyunları çərçivəsində keçiriləcək görüş sabah Çexiyanın Kladno şəhərində təşkil olunacaq.

# *“Azəryol” “Qarabağ”ı üstələyərək liderliyə yüksəldi*

Qadın həndbolçuların ölkə çempionatında 8-ci turun oyunları keçirilib. Azərbaycan Həndbol Federasiyasından verilən məlumata görə, maraqla gözlənilən “Azəryol” - “Qarabağ” görüşü gərgin idman mübarizəsi ilə yadda qalıb. Son ölkə çempionu mövsümə iddialı başlayan rəqiblə oyuna qələbə üçün çıxmışdı. Yüksək əzmkarlıq nümayiş etdirən “Azəryol” qarşıya qoyulan tapşırığı yerinə yetirib - 31:26.

Günün digər qarşılaşmasında isə “Azərsu” “İdman Akademiyası” komandasını sınağa çəkib. Kifayət qədər ciddi müqavimət göstərən “tələbələr” təcrübəli rəqibə asanlıqla təslim olmayıblar. “Azərsu” maraqlı mübarizənin sonunda cəmi 4 xal fərqi ilə qələbə qazanıb - 43:39.

Əsas rəqibi üzərində qələbə qazanan “Azəryol” 14 xalla çempionatın artıq vahid lideridir. “Qarabağ” 12 xalla ikinci pillədə qərarlaşıb. Üçüncü yerdəki “Azərsu” xal sayını 6-ya yüksəldib. “İdman Akademiyası” komandasının hələ də xalı yoxdur.

Çempionatın 9-cu turunun oyunları dekabrın 18-də keçiriləcək. Həmin gün “Qarabağ” “Azərsu”, “Azəryol” isə “İdman Akademiyası” ilə üz-üzə gələcək.

# Yasamal rayonunun idman ictimaiyyətinin nümayəndələri ilə görüş keçirilib



Yasamal rayonundakı Heydər Əliyev Mərkəzində Yasamal rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə rayonun bir qrup idman ictimaiyyətinin nümayəndələri ilə görüş keçirilib. Tədbiri giriş sözü ilə açan Yasamal rayon Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərov qonaqları salamlayaraq, “yeniyetmə və gənclərin sağlamlığının qorunmasında idmanın rolu” mövzusunda məruzə edib. İlham Səfərov çıxışında bildirib ki, yeniyetmə və gənclər arasında idmanın inkişafı istiqamətində atılan addımlar ölkə rəhbərliyinin idmana olan tükənməz qayğısının göstərdi. Bildirilib ki, son illər rayonumuzda yaradılan “Abad məhəllə”lərin əksəriyyətində idman meydançaları tikilərək rayon sakinlərinin istifadəsinə verilib ki, bu da öz bariz nümunəsidir. İlham Səfərov idarə tərəfindən keçirilmiş idman tədbirlərindən söz açaraq qeyd edib ki, bu yarışlarda kütləviliyə nail olunması idarənin qarşısında duran başlıca vəzifələrdən biridir.

Tədbirdə çıxış edən Yasamal rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov dünya miqyasında idman ölkəsi kimi tanınan Azərbaycanın son 20 ildə qazandığı yüksək nəticələrin təməlinin ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu qeyd edib. O, bu siyasətin bu gün Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Elşad Həsənov qeyd edib ki, dünyanın qabaqcıl idman ölkələrindən biri olan Azərbaycan hazırda Beynəlxalq Olimpiya Hərəkatının fəal üzvlərindən biridir. I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula 1 üzrə Qran-Pri yarışları və digər mötəbər dünya, Avropa çempionatlarının paytaxtımızda keçirilməsi bir daha ölkəmizin qüdrətini, idmanımızın inkişaf səviyyəsini növbəsində rayon yeniyetmə və gənclərinin idmanla mütəmadi məşğul olmasına şərait yaradır.

Tədbirdə Olimpiya çempionu Zemfira Meftaxetdinova, Əməkdar idman ustası Vüqar Namazov, kikboksinq üzrə 25 qat dünya çempionu, Əməkdar məşqçi Eduard Məmmədov, 2 saylı Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin direktor müavini Elxan Hacıyev çıxış edərək bədən tərbiyəsi və idmana göstərilən dövlət qayğısından söz açıb, idmançılarımızın bundan sonra da beynəlxalq yarışlarda uğurla çıxış edəcəklərinə əmin olduqlarını vurğulayıblar.

İdman ictimaiyyətinin nümayəndələri ilə görüşdə beynəlxalq və respublika yarışlarında yüksək nailiyyətlər əldə etmiş rayon sakini olan bir qrup idmançı, 2 saylı RİOEUGİM-in bir qrup məşqçi-müəllimi və idmançılar iştirak ediblər. Tədbir Məkəzin muzey bölməsində yerləşən ümummilli lider Heydər Əliyevin abidəsi önündə xatirə şəkli çəkdirilməsi ilə yekunlaşıb.

# *“Judo Club 2012”nin yeniyetmə cüdoçuları Bakı birinciliyində 3 medala sahib çıxdı*



Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman-Sağlamlıq Mərkəzində U-18 yeniyetmələr arasında Bakı birinciliyi keçirilib. “Judo Club 2012” klubundan verilən məlumata görə, üç gün davam edən yarışda 54 klubdan 554 (501 oğlan, 53 qız) cüdoçu qalib adı uğrunda mübarizə aparıb. Oğlanlar və qızlar 9 çəki dərəcəsində paytaxt birinciliyinin qaliblərini müəyyənləşdiriblər. Birincilikdə medal qazanan idmançılar arasında “Judo Club 2012”nin yeniyetmə cüdoçuları da var. Yarışda geniş tərkibdə təmsil olunan klubun üzvləri paytaxt birinciliyinin 1 qızıl, 1 gümüş və 1 bürünc medalla başa vurublar. Klubun yetirmələrindən Zeynəb Məmmədova -52 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. “Judo Club 2012”nin digər təmsilçilərindən Məmmədrza Hacızadə (-60 kq) ikinci, Rəşad Paşazadə (-81 kq) isə üçüncü yerə layiq görülüb.

Cavidan Abbasov (-46 kq), Oruc Hacıyev (-50 kq) və Cahangir Məmmədov (-90 kq) isə paytaxt birinciliyində beşinci yerlə kifayətləniblər. Yarışda fərqlənən cüdoçular Azərbaycan Cüdo Federasiyası, Bakı şəhər Gənclər və İdman baş idarəsinin medal və diplomları ilə təltif olunublar.

# Ölkə çempionatı start götürdü

Qadın və kişi voleybolçular arasında Azərbaycan çempionatına start verilib. 2019/20 mövsümünün açılış matçı Voleybol Mərkəzində olub. Yeni mövsümə qadın voleybolçular arasında son çempion “Azərreyl” başlayıb. Famil Ağayevin komandası “Abşeron”la qarşılaşıb. Gərgin mübarizə şəraitində keçən görüşdə “dəmiryolçular” sensasiyaya imkan verməyiblər. Onlar 3-cü setdə uduzsalar da, görüşdən 3 xalla ayrılıblar. Ardınca çempionatın rəsmi açılış mərasimi təşkil olunub. Günə “Murov” - “Neftçi” dueli ilə yekun vurulub. Kişi voleybolçulardan ibarət ölkə çempionu olan nominal ev sahibləri mövsümə məğlubiyyətlə başlayıblar. Fərid Cəlalovun rəhbərlik etdiyi kollektiv əsas rəqibi “Neftçi” qarşısında aciz qalıb - 0:3.

Qeyd edək ki, Super Liqada 6 komanda - “Azərreyl”, “Murov”, “Abşeron”, “Mübariz”, UNEC və Gürcüstan, Yüksək Liqada 8 iştirakçı - “Neftçi”, “Murov”, “Azərreyl”, MOİK, “Ekspress”, “Xilasedici”, “Sərhədçi” və Gürcüstan mübarizə aparacaq. Qadınlar və kişilər arasında keçirilən ölkə çempionatı 2 dövrədən və pley-off mərhələsindən ibarət olacaq.




## Əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Hüquq və İnsan Haqları İnstitutu və Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsi (MPK) arasında birgə əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Sənədi MPK prezidenti İlqar Rəhimov və institutun direktoru Aytən Mustafayeva imzalayıblar. AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunda baş tutan imzalanma mərasimində MPK prezidenti İlqar Rəhimov qeyd edib ki, bu əməkdaşlıq fiziki məhdudiyyətli insanların cəmiyyətə inteqrasiya olunması üçün mühüm addım olacaq. Əlilliyi olan şəxslərin hüquqlarının təmin olunması baxımından da bu anlaşma memorandumu çox əhəmiyyətlidir. "Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya olunması üçün hüquqi bazanın möhkəmləndirilməsi vacibdir. Bizim birgə əməkdaşlığımız sayəsində qanunvericiliklə bağlı müəyyən təkliflər edilə bilər" - deyə o əlavə edib.

AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun direktoru Aytən Mustafayeva isə qeyd edib ki, əlilliyi olan şəxslərin hüquqlarının təmin edilməsi rəhbərlik etdiyi institutun önəm verdiyi sahələrdən biridir. "Əminəm ki, bizim əməkdaşlığımız bu istiqamətdə mühüm irəliləyişə səbəb olacaqdır", - deyən A. Mustafayeva bu fikri xüsusi vurğulayıb. Qeyd edək ki, memorandum fiziki məhdudiyyətli şəxslərin, o cümlədən paralimpiyaçıların hüquqları sahəsində birgə fəaliyyətin inkişaf etdirilməsini, cəmiyyətdə paralimpiyaçıların hüquqlarının təmini ilə əlaqədar müxtəlif layihələrin birgə hazırlanaraq həyata keçirilməsini, birgə beynəlxalq layihə və proqramlarda iştirakın təmin olunması və digər bu kimi mühüm istiqamətləri əhatə edir. Memoranduma əsasən bundan sonra hər iki qurum paralimpiyaçıların mövcud olan infrastrukturdan istifadələrinə (əlçatanlığına) əngəl yaradan maneə və baryerlərin aşkara çıxarılmasını və aradan qaldırılmasını əhatə edən birgə tədbirlər həyata keçirəcəklər. İnstitut əhaliyə açıq olan və ya təqdim olunan obyekt (məktəblər, yaşayış evləri, binaları, yolları, iş yerləri, idman qurğuları, nəqliyyat və digər) və xidmətlərdən paralimpiyaçıların rahatlıqla istifadə imkanlarını nəzərdə tutan minimum standartları və rəhbər istiqamətləri ilə bağlı təkliflər də hazırlayacaq.

## "Seni Cup" çempionatının qalibləri müəyyənləşib

Bakı İdman Sarayında paralimpiyaçılar arasında boccia idman növü üzrə "Seni Cup" çempionatının qalibləri müəyyənləşib. Çempionatın final mərhələsində 60-dan çox fiziki məhdudiyyətli idmançı mübarizə aparıb. Yarışlarda Qalib Canıyev (BC1), Sona Ağayeva (BC2), Qüdrət Yusifli (BC3), Xəyal İslamov (BC4) və Ramid Əliyev (BC5) bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Yarışın qalibləri boccia üzrə Azərbaycan milli komandasının heyətinə dəvət alıblar. Xatırladaq ki, boccia idman növü 1984-cü ildə Paralimpiya Oyunlarının proqramına daxil edilib və 20 il ərzində populyarlıq qazanaraq 50 ölkədə inkişaf edir. İdmanın bu növü ilə ağır kateqoriyalı əlilliyi olan bütün insanlar məşğul ola bilərlər. Azərbaycanda boccia idman növünün inkişafına beş il əvvəl başlanıb. Keçən il Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə idmanın bu növü üzrə milli federasiya yaradılıb. Federasiyanın yaranmasından ötən bir il ərzində idmançılarımız bir sıra beynəlxalq yarışlarda iştirak edərək uğurlu nəticələr qazanıblar.



## Paytaxtımız dünya kubokuna uğurla ev sahibliyi edib

Bakı İdman Sarayında budo döyüş növləri üzrə V dünya kuboku turnirinin qalibləri müəyyənləşib. Gənclər və İdman Nazirliyi, Dünya Budo Döyüş Növləri Federasiyası və Azərbaycan Budo Döyüş Növləri Federasiyasının (ABDNF) birgə təşəbbüsü ilə keçirilən turnirdə Azərbaycan, Pakistan, İraq, Əfqanıstan, İran, Gürcüstan, Özbəkistan, Türkiyə, Kipr, Rusiya, Banqladeş və Hindistandan olan 900-ə yaxın idmançı çıxış edib.

Turnir semi-kontakt, ful-kontakt, fri-kontakt, layt-kontakt, sabaki-citsu, submission, B-1, F-1 və S-1 qaydaları üzrə keçirilib.

Yarışda Azərbaycan komandası ən çox medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İran komandası ikinci, Türkiyə isə üçüncü olub. Kata yarışlarında isə Kipr idmançıları bütün rəqiblərini qabaqlayaraq birinci pillədə qərarlaşıblar. Azərbaycan idmançıları gümüş, İran təmsilçiləri isə bürünc medalla kifayətləniblər. Nümunəvi çıxışlarda isə İran milli komandası qızıl medal qazanıb. Azərbaycan milli komandası gümüş, Ukrayna isə bürünc medala layiq görülüb.

# ADBTİA-da elmi-praktiki konfrans keçirilib

(əvvəli 1-ci səhifədə)

Plenar iclası açıq elan edən akademiyanın rektoru Fuad Hacıyev bu ali təhsil ocağında kadrların hazırlanması sahəsində görülən işlərdən və qarşıda duran vəzifələrdən danışıb. Natiq çıxışının sonunda konfrans iştirakçılarına müzakirələrdə fəal iştirak etməyi, ortaya əməli nəticələr qoymağı və bütövlükdə tədris



prosesini müasir tələblərə uyğun qurmağı tövsiyə edərək, konfransın işinə uğurlar arzulayıb.

Tədris metodiki şurasının məsul katibi Yusif Quliyev konfrasın məqsədi, formatı, reqlamenti barədə məlumatın və konfransa təqdim edilmiş materialların Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Elmi xəbərlər" jurnalında dərc ediləcəyi haqqında məlumat verib.

Akademiyanın elmi işlər üzrə prorektoru Təhminə Tağı-zadə, Tibbi-bioloji elmlər kafedrasının müdiri Xəlil Qasımov digər natiqlər məruzələrlə çıxış ediblər.

Məşq və fiziki hazırlıq fakültəsinin dekanı, professor Firat Hüseynov məruzəsində ""Hərəkət strukturu və əzələ - bağ aparatının reaktivlik potensialının tədqiqi" haqqında danışıb.

"Tədqiqat istiqamətlərindən asılı olmayaraq, hərəkət strukturunun öyrənilməsi bədən tərbiyəsi və idman sahəsində həmişə aktual problem sayılır. Bu onunla əlaqədardır ki, istənilən idman növündə məşq yükünün təsiri nəticəsində hərəkət strukturunda müəyyən dəyişikliklər və təkmilləşmələr baş verir. Eyni zamanda məşq yükünün və onun




məzmununun düzgün müəyyənləşdirilməməsi nəticəsində idmançı hazırlığında formalaşmış "zəif həlqələr" də hərəkət strukturunda yer tutur. Beləliklə, düzgün müəyyən olunmuş qiymətləndirmə hərəkətləri strukturunun təhlili idmançı hazırlığındakı zəif cəhətləri korreksiya etməyə, onları aradan qaldırmağa əsas vermiş olur.

İdman növündən asılı olmayaraq, insan bədəninin yerdəyişməsi 14 böyük seqmentdə baş verir. İrəliləmələr və yerdəyişmələr zamanı insanın dayaq sahəsinə nisbətən gövdənin və ətrafların yerləşmə vəziyyəti əlavə hərəkət enerjisindən istifadə üçün şərait yaradır. Bu enerji sırasında birinci yerdə duran əzələ-bağ aparatının reaktivlik enerjisidir. Bu enerjinin yaranma şəraiti və onun təzahürü idman sahəsində çalışan tədqiqatçıları həmişə maraqlandırır", - deyə o, məruzəsində bildirib.

Pedaqogika üzrə elmlər doktoru, professor Dilqəm Quliyev "Azərbaycan ilə Beynəlxalq Olimpiya Akademiyası arasında beynəlxalq təhsil sahəsində əlaqələrin möhkəmlənmə yolları" haqqında məruzə edib.

"Ölkəmizdə təhsilin dünya təhsil sisteminə, xüsusən ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası prosesini və Boloniya Bəyannaməsinin tələblərinin yerinə yetirilməsi sahəsində işləri sürətləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" 31 yanvar 2008-ci il tarixli sərəncam imzalanıb.

Azərbaycanda təhsilin dünya təhsil sisteminə və ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası prosesini geniş şəkildə araşdırmaq və nəticələrini qiymətləndirmək mühüm əhəmiyyət və aktuallıq kəsb edir.

Hər bir yeni yaradılan dövlətin, müstəqillik qazanmış bir respublikanın ən ümdə vəzifələrindən biri öz milli təhsil sisteminin yaradılmasına, bu sistemin sivil dövlətlərin təhsili səviyyəsinə yüksəldilməsinə nail olmaqdır. Müstəqillik əldə etdiyimiz dövrdən bəri yeni təhsil sisteminin təşkili, onun inkişafı dövlətçilik siyasətinin ən önəmli uğurlarındandır. Təhsil islahatımızda yeni prinsiplərə, tələblərə tezliklə sirayət olunmalı, həmçinin humanistləşdirmə, diferensiallaşdırma və fərdiləşdirmə yolları ilə pedaqoji təfəkkürü formalaşdırıb yeni, nailiyyətlər əldə edə bilərik", - deyə Dilqəm Quliyev vurğulayıb.

Məruzəsində Bədən Tərbiyəsi və İdman Akademiyasının Avropa ali təhsil məkanına inteqrasiyası məsələsində bir çox əhəmiyyət kəsb edən problem, perspektivlərindən danışan məruzəçi deyib:

"Birgə təhsil proqramları, xüsusilə ikili diplom dünyada universitetlərin əməkdaşlığının qanunauyğun mərhələsi kimi meydana çıxır. İdman Akademiyasının və Avropa ali məktəblərinin birgə proqramlarının yaradılması siyasətinin və asılılığının təhlili göstərir ki, akademiyada təhsil sisteminin inkişafı Avropa təhsil sistemindən asılılığın azaldılmasına səbəb olur. Avropa universitetləri ilə İdman Akademiyasının birgə proqramlar hazırlamasında başlıca prioritetlərdən biri də yeni təhsil bazarına çıxış, tələbə cəlb edilməsinin genişləndirilməsi, diplomların əmək bazarında mövqe və tanınma dərəcəsinin gücləndirilməsindən ibarətdir. Eyni zamanda İdman Akedimiyasının müəllim və tədqiqatçıları üçün daha əlverişli şərait yaradılması və akademiyanın ali beynəlxalq rəqabət qabiliyyətliliyinin möhkəmləndirilməsindən ibarətdir".

Natiqlərin çıxışından sonra konfrans öz işini "İdmançıların hazırlıq sisteminin təkmilləşdirilməsi", "Bədən tərbiyəsində kütləvilik və sağlam həyat tərzinin formalaşdırılması" və "Bədən tərbiyəsi və idmanın idarə edilməsi və sosial-iqtisadi aspektləri" bölmələri üzrə davam etdirib. Konfransda ümumilikdə 35-ə yaxın məruzə dinlənilib.

Məruzələrdə fənlərin tədrisinin məqsəd və vəzifələri, mövcud vəziyyəti, aktual problemləri, imkan və perspektivləri mövcud problemləri diqqətə çatdırılıb. Bundan başqa



çıxışlarda idmançıların qanında müqayisəli tədqiqi, fiziki tərbiyə dərslərinə olan təsirinin tədqiqi, pedaqoji-metodik işin modernləşdirilməsi, təhsildə keyfiyyətin idarə olunmasında beynəlxalq təhsil tədqiqatlarının rolu, valideyn övlad münasibətlərinin yeniyetmənin özünü qiymətləndirməsinə təsiri, tələbələrin asudə vaxtının təşkili yolları, fiziki tərbiyə müəllimi hazırlığının məzmunu, fiziki hazırlığına nəzarət və qiymətləndirmə metodları, idmanda qəfləti ölüm, linqvistik imperializmin inkişaf faktoru kimi idman sahəsində funksionallaşması, təlim prosesində yeni öyrənmə modelləri, mənəvi-əxlaqi dəyərlərin təhsildə tətbiqi, əhalinin bədən tərbiyəsi və idmana həvəsləndirilməsinin üsul və vasitələrindən danışılıb. Məruzələrdə həmçinin internat məktəblərinin təlim-tərbiyə işində fiziki tərbiyənin rolu, ingilis dilinin öyrənilməsinin aktual problemləri, ikinci dilin mənimsənilməsi və öyrənilməsi proseslərinə ana dilinin təsiri, idmançı psixologiyasında qorxuların rolu, idman testlərinin etibarlılığının yoxlanılması, ali məktəbdə təhsilin məzmununa texnoloji yanaşmaların xüsusiyyətləri və digər mühüm məqamlar öz əksini tapıb. Bölmə iclaslarında məruzələr müzakirə edilib, maraqlı və dəyərli təkliflər irəli sürülüb.

Konfransın sonunda bölmə rəhbərlərinin hesabatları dinlənilib, yekun qərar qəbul edilib.

*Dilqəm Quliyev*

Ali məktəblərin idman həyatı

# Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil və idman bir-birini tamamlayır

*Sağlam həyat tərzi bu günün və sabahın tələbidir. Gənc nəslin fiziki və mənəvi tərbiyəsi ölkəmizdə böyük diqqət mərkəzindədir. Uşaq və yeniyetmələrin elmə və sağlam həyat tərzinə yiyələnməsi üçün ölkəmizdə lazımi şərait yaradılıb. Bunu orta məktəblərin və ali təhsil ocaqlarının fəaliyyətinə nəzər salarkən, aydın görmək olar. Ali təhsil ocaqlarından söz düşmüşkən, diqqəti Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə yönəltsək, görərik ki, burada təhsillə yanaşı, idmana da böyük diqqət yetirilir. "Olimpiya dünyası" qəzeti "ali məktəblərin idman həyatı" rubrikası altında növbəti yazını bu təhsil ocağına həsr edir. Gələn il 100 yaşını qeyd edəcək Akademiya həm elm, həm də digər sahələrdə qabaqcıllardan sayılır.*

Məlumat üçün bildirək ki, universitetdə gələcək mütəxəssislərin təlim-tərbiyəsi ilə 100-dən çox elmlər doktoru, professor, 600-dən çox elmlər namizədi, dosent məşğul olur. Onların sırasında Respublika Elmlər Akademiyası və beynəlxalq akademiyaların bir çox həqiqi və müxbir üzvləri var. Elm və texnika sahəsi üçün mütəxəssis hazırlığı ilə universitetdə 28 kafedra məşğul olur.

ADNSU-da aspirantura və doktorantura şöbələri fəaliyyət göstərir. Ötən 99 il ərzində təhsil ocağı 70 mindən çox mühəndis, 2 mindən çox elmlər namizədi və 250-dən çox elmlər doktoru yetişdirib. Universitetdə yüksək ixtisaslı mühəndis və elmi kadrların hazırlanmasına iki elmi-tədqiqat institutu, 32 elmi-tədqiqat problem laboratoriyası, Sənaye müəssisələri işçilərinin ixtisasartırma və yenidən hazırlanma institutu öz töhfələrini verirlər.

ADNSU-nun 1 milyona yaxın kitab fondu olan kitabxanası, informasiya hesablama mərkəzi, tədris vəsaitləri çap edən nəşriyyatı, 7 korpuslu tələbə şəhərciyi, 3 tədris korpusu, tələbə poliklinikası və xəstəxanası və idman kompleksi fəaliyyət göstərir. Universitetdə "Elmi əsərlər", "Azərbaycan ali texniki məktəblərinin xəbərləri" adlı məcmuələr, "Neft kadrları uğrunda" adlı çoxtirajlı qəzet nəşr olunur. ADNSU-nun məzunlarından 50 nəfərdən çox Azərbaycan EA-nın həqiqi və müxbir üzvü, 150 nəfərdən çox Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanı, 70 nəfərə yaxın Dövlət mükafatı laureatı fəxri adlarına layiq görülüb. Respublikamızda və xarici ölkələrdə fəaliyyət göstərən müvafiq şirkət, təşkilat, təhsil və elmi-tədqiqat müəssisələri ilə əməkdaşlıq tədbirləri məzunların gələcəkdə işlə təmin olunmasına böyük imkanlar yaradır. Respublika ali təhsil müəssisələri içərisində ADNSU yeganə təhsil ocağıdır ki, Avropa Universitetləri Assosiasiyasına qəbul edilib. ADNSU, həmçinin Avropanın "TEMPUS" proqramının iştirakçısıdır. 1999-cu ildən başlayaraq ADNSU Amerika proqramları əsasında ABŞ-ın Corciya Dövlət Universiteti ilə birlikdə iki ixtisas üzrə magistrlər hazırlamağa başlayıb. İlk dəfə məzunlara Amerika nümunəli diplomlar verilib.

Universitetin tərbiyə işləri üzrə prorektoru dosent Ata Babayevin sözlərinə görə, bu ali məktəbdə oxuyan tələbələr həm də özlərinin nizam-intizamlarına görə seçilirlər: "Təcrübələr göstərir ki, özünə qarşı məsuliyyətli olmayan tələbə heç bir sahədə uğur qazana bilməz. Bu mənada biz çalışırıq ki, gənclərimiz məqsəd və hədəfləri uğrunda hərəkət etsinlər. Əlbəttə, bunun üçün nizam-intizamlı olmaq əsas şərtdir. Təhsildə olduğu kimi idmanda da fəallıq nümayiş etdirsinlər. İdman gəncləri mübariz ruhda tərbiyə etməklə yanaşı, həm də onları zərərli vərdişlərdən çəkindirir. Bu, çox vacibdir. Çünki bir sıra zərərli vərdişlər var ki, onlar təkcə gənclərin sağlamlığına ziyan vurmur, həm də normal düşünmələrinə mane olur. Bu mənada çalışırıq ki, tələbələrimizi idmana, sağlam həyat tərzinə cəlb edək. Sevindirici haldır ki, idmanda da uğurlarımız yetərincədir. Bizim müxtəlif yarışlarda uğur qazanan idmançılarımız var. Onlardan biri də İnformasiya texnologiyaları və idarəetmə fakültəsinin II kurs tələbəsi karateçi Ayxan Məişzadədir. Bir sıra respublika və beynəlxalq səviyyəli yarışlarda nailiyyətlər qazanan Ayxan may ayında Ukraynanın Odessa şəhərində keçirilən dünya çempionatında fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib. Təsadüfi deyil ki, Ayxan özünün davranışı və hərəkətləri ilə müəllimlərinin də etimadını qazanıb. Biz onunla fəxr edirik və istəyirik ki, belə idmançı-tələbələrimiz daha çox olsun."



Ata müəllim, həmçinin qeyd etdi ki, tələbələrin idmanla məşğul olmaları onların təhsildəki rəqabətinə də şərait yaradır: "Bildiyimiz kimi, idmançılar özlərinin əzmkarlıqları ilə həmişə seçilirlər. Onlar qarşıya qoyulan hədəf üçün məqsədyönlü şəkildə addımlayırlar. Təcrübələr göstərir ki, idmançı tələbələr müəllimlərinin onlara verdiyi tapşırıqları da daha tez yerinə yetirirlər. Beləliklə, tələbələr arasında rəqabət yaranır. Bu, yaxşı haldır. Çünki uğurlu nəticələr yalnız rəqabət olduğu təqdirdə meydana çıxır".

## Peşəkar fəaliyyət, uğurlu istiqamət

Bütün ali məktəblərdə tələbələrin sosial fəaliyyətlərini zənginləşdirmək, onlarla müəllimlər arasındakı əlaqəni təmin etmək üçün Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) və Tələbə Gənclər Təşkilatı (TGT) fəaliyyət göstərir. Həmin qurumlar ADNSU-da da kifayət qədər fəaldır. Bu təhsil müəssisəsində THİK-in sədri Namiq Gəncəyevdir. Namiq müəllimin sözlərinə görə, THİK-in əsas vəzifələrindən biri tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsi, o cümlədən onların idmana cəlb edilməsidir: "Tələbə Həmkarlar İttifaqı Komitəsi tələbələrin hüquqlarını qoruyan yeganə təşkilatdır. THİK universitetdə tələbələri ictimai işlərə cəlb edərək bu istiqamətdə formalaşmaları, yataqxana ilə təmin olunmaları, universitetin daxili nizam-intizam qaydalarına riayət etmələri, tələbələrin asudə vaxtlarının dəyərləndirilməsi, yay düşərgələrinin təşkili, universitetin ictimai həyatı və elmi cəhətdən fərqlənən THİK fəallarının mükafatlandırılması istiqamətində fəaliyyət göstərir. ADNSU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində 12 idman növünü özündə birləşdirən idman klubu fəaliyyət göstərir. İdman klubunun üzvləri öz nailiyyətləri ilə seçilirlər. Bununla yanaşı, Komitənin nəzdində universitetin brendi, 51 illik tarixə malik olan və özfəaliyyət kollektivləri arasında yeganə "Xalq ansamblı" adına layiq görülmüş "Gənclik" mahnı və rəqs ansamblı da fəaliyyət göstərir. Ansambl Avropanın bir sıra ölkələrində (Almaniya, Moldova, Ukrayna, Türkiyə), habelə Cənubi Koreyada keçirilən festivallarda ölkəmizi və universiteti ən yüksək səviyyədə təmsil edib. Ansambl iştirak etdiyi bütün ölkədaxili festivallarda ya qalib olub, ya da ikinci yerə layiq görülüb. 2016-cı ildə isə "Gənclik"mahnı və rəqs ansamblı peşəkarlar arasında ölkə birincisi adına layiq görülüb. Komitənin nəzdində, həmçinin ADNSU Teatr Klubu (ATK) da fəaliyyət göstərir. İstedadlı tələbələr sistematik olaraq hazırladıqları tamaşaları universitet ictimaiyyətinə təqdim edirlər. Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində "Maqnat" intellektual klubu və "ADNSU Debat Klubu" da fəaliyyət göstərir ki, bu da tələbələrimizin intellektual baxımdan inkişaf etmələrinə öz töhfəsini verir. "Maqnat"intellektual klubu özündə "Kim? Harada? Nə Zaman?", "Brain Rinq" və "Xəmsə" turnirlərində iştirak edən komandaları birləşdirir. Eləcə də müntəzəm olaraq universitet daxilində intellektual yarışların təşkil olunmasını təmin edir. "ADNSU Debat Klubu" tələbələrimizə səlis və aydın nitq formalaşdırmağa və fikirlərini əsaslandırmaqlarına köməklik edir. Burada həftəsonları daxili çempionatlar keçirir və eyni zamanda da komandamızın üzvləri ölkədaxili turnirlərdə iştirak edərək yüksək nailiyyətlər qazanırlar. 2016-cı ildən universitetdə "Şən və Hazırcavablar Klubu" (ŞHK) da fəaliyyət göstərir. Yeni yaranmasına baxmayaraq "AzNeft" komandamız artıq ölkə çempionu adına layiq görülüb," - deyə bildirdi.

## "İdman ən ideal həkimdir"

Qeyd etdiyimiz kimi, tələbələrin asudə vaxtlarının səmərəli təşkili, onların mənəvi və fiziki cəhətdən sağlam olmaları üçün ADNSU-nin nəzdində idman klubu fəaliyyət göstərir. Klubun müdiri Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi Sahəddin Əhmədovdur. Universitetin idman həyatı haqqında daha ətraflı məlumat almaq üçün Sahəddin müəllimlə görüşdük. Müsahibimiz əvvəlcə, idmanın yeniyetmə və gənclərin həyatındakı rolundan danışdı: "İdman kiçikdən-böyüyə hamı üçün lazımdır. Bu, o demək deyil ki, hər kəs peşəkar idmanla məşğul olsun. Amma hər kəs gündə heç olmasa, yarım saat təmiz havada qaça, yeriyə, yüngül idman hərəkətləri edə bilər. Unutmaq olmaz ki, idman ən ideal həkimdir. İdmanla məşğul olanlar nadir hallarda xəstələnir. Çünki onların immunitetləri güclü olur. Bəzən elə düşünürlər ki, idmanla məşğul olanlar təhsildən yayınırlar. Əslində isə bu fikir kökündən səhvdir. Əksinə, idmançılar dərslərinə də məsuliyyətlə yanaşırlar. Belə ki, məsuliyyət hissi artıq onların xarakterlərində özünə yer tapır. Bir də ki, bədən sağlam olmayanda insanın öz biliklərini tətbiq etməsi də məhdudlaşır. Bu səbəbdən də idman gərək hər bir şəxs üçün gündəlik vərdişə çevrilsin".



ADNSU-nun idman uğurları haqqında danışan Sahəddin müəllim vurğuladı ki, tələbələrin idmana maraqları arzuolunan səviyyədə olmasa da, nəticələr sevindiricidir: "İdman kafedraları idman klubları ilə əvəz olunduqdan sonra tələbələrin idmana maraqları ümumiyyətlə azalıb. Buna baxmayaraq, bizim komandalarımız müxtəlif spartakiadalarda, universiadalarda fərqlənməyi bacarırlar. Bu, tələbə idmançılara yaradılan şəraitlə bağlıdır. Belə ki, idman klubunda tələbələrin 12 müxtəlif idman növü ilə, o cümlədən, futbol, basketbol, voleybol, sərbəst güləş, yunan-Roma güləşi, cüdo, badminton, trenajorla məşğul olmaları üçün hər cür şərait var. Həm də idmançılarla peşəkar məşqçi-müəllimlər məşğul olurlar. Mart ayında təşkil edilən universiadada cüdoçularımız ikinci oldular. Yeddi idmançımızdan biri qızıl, ikisi gümüş, ikisi bürünc medala layiq görüldü. Aprel ayında keçirilən universiada çərçivəsində basketbol komandamız birinci yerə layiq görüldü. Həmin komanda üzvlərindən Rəvan Əliyev, Xəyyam Musayev, Süleyman Babayev, Əli Bünyətzadə və digərləri artıq peşəkar basketbolçudurlar. Həmçinin aprel ayında universitetimizin atletika komandası da ikinci oldu. Onlardan Fidan Səlimova üç mıxtəlif növdə-uzunluğa tullanma, nüvəitələmə və 100 metr məsafəyə qaçışda ən yaxşı nəticəni göstərdi. Bu nəticələr onu göstərir ki, universitetimizin idman klubunda tələbələrin idmanın müxtəlif növləri ilə məşğul olmaları üçün şərait var. Sadəcə gərək onlar həvəsli olsunlar, öz sağlamlıqlarının, ölkənin sabahının qayğısına qalsınlar. Axı bugünkü oğlan tələbələr sabahın əsgərləridirlər", - deyə o, əlavə etdi.

Göründüyü kimi, ADNSU-da tələbələr təhsildə olduğu kimi, idmanda da fəallıq nümayiş etdirirlər. Bunun üçün universitetdə hər cür şərait var. Əsas odur ki, gənclər öz sağlamlıqlarına, gələcəklərinə biganə yanaşmasınlar.




*Kənan Novruzov*

Müsahibə

# "Bakılı qızlar"dan başlayıb, "Kəpəzə gedən yol"

***Kino - həyatı öz çalarları ilə əks etdirən bir ekran əsəridir. Burada mövzu müxtəlif prizmadan tamaşaçıya təqdim edilir. Bununla da filmlər insanları həyatın mənası haqqında düşünməyə və baş verənləri analiz etməyə sövq edir. Bir qəhrəmanın həyatı milyonların müzakirə obyektinə çevrilir. Bir növ tamaşaçı qəhrəmanın həyatının ayrılmaz hissəsinə çevrilir. Bu gün dünyada müxtəlif mövzularda filmlər çəkilir. İdmanın dünyada aparıcı mövqedə olması kino sənayesinə də təsir edə bilib. Artıq idman hadisələri və hadisələrin mərkəzində olan ulduzlar barədə ekran əsərləri lentin yaddaşına həkk olunur. Müasir kino sahəsinin zəif olmasına baxmayaraq, Azərbaycanda da idman mövzusunda filmlər çəkilir. Gənc rejissorlar bu sahədə uğur qazanan idmançılarımızın həyat yoluna və yaradıcılığına müraciət edirlər. Bu mövzuda yaradıcılıqla məşğul olan rejissorlardan biri də Aydan Əhmədovadır. Aydan xanımla tanışlıq veteran qapıçı Çingiz İsmayılova həsr olunmuş "Futbol sevincim mənim" filminin təqdimatından sonra baş tutdu. Gənc rejissorla "Olimpiya dünyası" qəzetinin redaksiyasında görüş zamanı öyrəndik ki, Aydan xanım buna qədər belə mövzuda bir neçə sənədli filmin ərsəyə gəlməsində iştirak edib. Müsahibimizlə söhbətə "Futbol sevincim mənim" filmi ilə başladıq.***

## "Filmin uğurlu alınması, filmin qəhrəmanından da asılıdır"

***- Aydan xanım, əvvəlcə istərdik film haqqında oxucularımıza məlumat verəsiniz.***

- Biz "ARB Media Qrupu"un nəzdində "Aran Film" Yaradıcılıq Mərkəzi olaraq sənədli filmlər üzərində işləyirik. 2018-ci ildən bu mərkəzdə rejissor kimi çalışıram. Bu günə qədər müxtəlif mövzularda filmlər hazırlamışam. Amma faiz etibarilə götürsək, filmlərimin əksəriyyəti idmanla bağlı olub. Ekranda idman mövzusunda ilk filmim "Bakılı qızlar" olub. Bu film SSRİ dövründə qızlardan ibarət həndbol komandasından bəhs olunur. O komanda ki, heyətində Rəfiqə Şabanova, Lyudmila Şubina, Esmira Vahabzadə, Marina Cəfərova kimi həndbolçularımız çıxış edib. Film vasitəsi ilə komandanın uğurlarını xatırladıq və xatirələri yenidən oyatdıq. Həmin filmin Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında geniş təqdimatı olmuşdu.

"Bakılı qızlar"dan sonra qərara aldım ki, idmana yenidən müraciət edim. Çingiz müəllim haqqında film çəkməyi isə mənə bədii rəhbərimiz kinorejissor Tahir Əliyev təklif etdi. Düzdür, buna qədər Çingiz müəllimi tanıyırıdım. Süjet xəttini qurmaq üçün onun haqqında araşdırmalar apardım, daha yaxından tanımağa çalışdım. İstənilən filmi işləyəndə rejissor bu cür etməlidir. Bu fikir isə insanın ağlına müxtəlif vaxtlarda gəlir. Ola bilər müxtəlif çəkilişlər edirsən, materiallar toplayırsan, amma onu hansı xətt üzərində quracağını dəqiq bilmirsən. Çingiz müəllim haqqında filmin çəkilməsini düşünəndə artıq bu filmin kadrlarını gözlərimdə canlanırdım. Düşündüm ki, Çingiz müəllimin həyatı futbola həsr olunubsa, filmdəki bütün çəkilişlər də elə məhz stadionda olmalıdır. Çingiz müəllimin şərhçi-jurnalist kimi çalışdığı həmin epizodları şərhçi otağında çəkdik. Yəni bir həyatın necə idmana, futbola həsr olunduğunu filmdə əyani olaraq göstərmək istədik. Filmin uğurlu alınması, həm də filmin qəhrəmanından da asılıdır. Hər qəhrəmandan o müsbət enerjini almaq olmur. Düşünürəm ki, maraqlı film alınıb. Film Çingiz müəllimə də təsir edibsə, özümü çox xoşbəxt hiss edirəm.



***- Maraqlıdır, filmin adını niyə məhz "Futbol sevincim mənim" qoymusunuz?***

- "Futbol sevincim mənim" adı Çingiz müəllimin, Azərbaycan Dövlət Televiziyasında çalışdığı vaxtlarda hazırladığı verilişin adından götürülüb. Bu təsadüfi deyil. O ad sanki həqiqətən də Çingiz müəllimin həyatını əks etdirir.

***- Film neçə müddətə çəkilib?***

- Filmin çəkilişlərinə may ayında başladıq, yay aylarında artıq montaj prosesini bitirdim. Oktyabr ayında isə filmin təqdimatı oldu.

## "Eldar Əzimzadəni tanımayan bir nəsil yetişir"

***- Bu yaxınlarda "Kəpəzə gedən yol" filminizin də təqdimatı oldu. Yenidən futbol mövzusuna müraciət etdiniz.***

- Bu film "Kəpəz" futbol klubunun 60 illik yubileyinə həsr olunub. Sənədli filmin təqdimatı Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında keçirildi. İlin əvvəlində filmin Gəncədə də təqdimatı keçirilmişdi. Film müxtəlif dövrlərdə komandanın şərəfini qorumuş futbolçular, onların xatirələri üzərində qurulub. Komandanın SSRİ dönəmindəki əzəmətinə baxdıqda indiki vəziyyətini qəbul etmək çox çətindi. Elə filmdə də veteran futbolçularımızın dilindən səslənən bir faktı demək istəyərdim. 1986-cı ildə SSRİ kubokunun 1/8 final mərhələsində komanda yüksək liqanın favoriti olan - Kiyev "Dinamo"su ilə qarşılaşmışdı. Oyun 2:1 hesabı ilə rəqibin xeyrinə başa çatsa da, qarşılıqlı mübarizə şəraitində keçən matçdan sonra "Dinamo"nun əfsanəvi baş məşqçisi Valeriy Lobanovski "Kəpəz"in oyununu xüsusilə qeyd etmişdi. O, ayrı-ayrı futbolçularımızı fərqləndirmişdi.

Komandanı yüksək liqada oynamağa layiq bilmişdi. Yəni Lobanovski kimi tələbkar, mükəmməl bir mütəxəssisin bu fikirləri "Kəpəz"in gücündən xəbər verir. Arzu edirəm ki, komanda indiki bu durğunluq dönəmini tezliklə adlasın və Gəncənin, eləcə də Azərbaycanın əsl futbol azarkeşlərini yenidən sevindirsin. Bundan sonra Azərbaycanın futbol hakimi Eldar Əzimzadə haqqında film hazırladım. Bu filmin də mənim üçün böyük əhəmiyyəti var idi. Futbol hakimi deyəndə yada daha çox Tofiq Bəhramov düşür. Futbolu bilən də, bilməyən də məhz bu adı tanıyır. Təəssüf ki, Eldar Əzimzadəni tanımayan bir nəsil yetişir. Məhz bu həmyerlimiz SSRİ dövründə güclü rəqabət içində öz şəxsi bacarığı, istedadı hesabına önə çıxa bilən ədalət təmsilçilərimizdən biri idi. O, 1980-ci ildə Moskvada keçirilən Yay Olimpiya Oyunlarının futbol yarışının final görüşünü idarə edib. Eldar Əzimzadə həmçinin yeniyetmələr arasında keçirilən ilk futbol üzrə dünya çempionatına Azərbaycandan təyinat almış hakimdir. Bu da onun şəxsi bacarığı və istedadı hesabına qazandığı rəğbətdir. Hazırda futbol mövzusunda iki yeni film üzərində çalışıram. Bu filmlərdən biri "Neftçi"nin əfsanəsi Maşallah Əhmədov haqqında, digəri isə "Araz Naxçıvan" klubundan çıxmış və "Neftçi"nin baş məşqçisi olmuş Böyükağa Hacıyev haqqındadır.

## "Mövzunu nə qədər çox sevirsənsə, ona toxunmağa da bir o qədər qorxursan"

***- Gənclər hər zaman ilk addımlarını atanda daha çox keçmişə nəzər salırlar. Bəs müasir dövrümüzdə bugünki uğurlarımızı əhatə edən film hazırlamaq barədə düşünmüsünüzmü?***

- Futbol mövzusunu davam etdirmək istəsən, "Qarabağ" klubu haqqında film hazırlamaq istəyərəm. Mən bu kluba azarkeşlik etməklə yanaşı, həmçinin böyük rəğbət bəsləyirəm. Amma özümü bu komanda haqqında film çəkməyə mənəvi cəhətdən tam hazır hiss etmirəm. Əvvəlcə özümü buna hazırlamalıyam. Bu komandanın mənəvi dəyərləri, həmçinin, oyunçuları, məşqçiləri və rəhbərliyin klubda yaratdığı ruh mənə çox yaxındır. Bir sözlə, mən bu komanda ilə qürur duyuram. Təkcə nəticələr deyil, bu komandanın bir ayrı mənəvi strategiyası var ki, o məni çox təsirləndirir. İnşallah nə vaxtsa arzuladığım filmi işləmək mənə nəsib olar. Mövzunu nə qədər çox sevirsənsə, ona toxunmağa da bir o qədər də qorxursan. Çünki ehtiyat edirsən ki, nəyisə əhatə edə bilməzsən. Yəni bunun məsuliyyəti çox ağırdır.

***- Olimpiya idman növlərində uğurlarımız yetərincədir. Maraqlıdır, Olimpiya çempionlarımız və Olimpiya idman növləri haqqında film çəkmək planlarınıza daxildirmi?***

- Sevdiyim idman növlərindən biri də voleyboldur. Müstəqillikdən sonra voleybol komandamızda uğurların artmasında təcrübəli mütəxəssis Faiq Qarayevin xidmətləri danılmazdır. Vaxtilə bu komandanın heyətində çıxış edən aparıcı voleybolçularımız haqqında da film hazırlamaq istəyirəm.

***- Olimpiya çempionlarımızdan Nazim Hüseynov, Zemfira Meftaxetdinova haqqında film çəkilib. Məlumdur ki, onların çəkdiyi əziyyət, keçdiyi yol elə də asan olmayıb. Maraqlıdır, bunu qısa bir filmə necə sığdırmaq olar?***

- Təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, olimpiyaçılarımızdan Namiq Abdullayev, Fərid Mansurov və Elnur Məmmədli zədə səbəbinə görə karyeralarını bir qədər tez başa vurdular. Onlar hazırda məsul vəzifələrdə çalışırlar. Ümumiyyətlə, mənim idmançılara bir ayrı rəğbətim var. İdman təkcə qələbədən ibarət deyil. Bəzən görürsən ki, zədələr idmançının ömürlük sıradan çıxmasına səbəb olur. Zədənin sağalmağı və əvvəlki formanın bərpa olunması idmançıdan böyük irada, dözüm, səbr tələb edir. Mən Mariya Stadnikin azarkeşiyəm. O xanımda həqiqətən də Azərbaycana bağlılıq hiss edirəm. O, Olimpiya Oyunlarının üçqat mükafatçısıdır. Çox istedadlı idmançıdır. Həmin idmançı barədə də film hazırlamaq istəyərəm. Düşünürəm ki, bundan başqa yuxarıda adlarını sadaladığım olimpiyaçılarımızın həyatını bir filmə sığdıraraq, onların idmançı taleyini sənədli filmdə əks etdirim.

***Anar Əhmədov,***
***Azər Əlizadə***

---

# Formula 1

## Sebastyan Fettel "McLaren"də çıxış edəcək?



Dördqat dünya çempionu, "Ferrari" komandasının almaniyalı pilotu Sebastyan Fettel 2020-ci il mövsümünün başa çatmasından sonra "McLaren" komandasının heyətinə keçə bilər. Fettel artıq gələcək əməkdaşlığın mümkün olması məsələsi ilə bağlı komandanın rəhbəri Andreas Zaydla müraciət edib.

"Ferrari"nin alman pilotu ötən mövsümdə komanda yoldaşı Şarl Leklerlə münaqişədə iştirak edib və onun İtaliya komandasını tərk etməsi həmin qarşıdurmanın məntiqi nəticəsi kimi qiymətləndirilir. Fettel mövsümün yekununa görə şəxsi hesabda beşinci yeri tutub və bir mərhələdə qələbə qazanıb. Onun komanda yoldaşı Şarl Lekler isə mövsümü dördüncü yerdə başa vurub və Fetteli 24 xal qabaqlayıb. 2019-cu il mövsümündə onun hesabında iki qələbə var.

## "Renault" gənclər akademiyasının məzununu F1-ə çıxarmaq istəyir

"Renault" akademiyasının direktoru Mia Şarizman qeyd edib ki, onun təmsil etdiyi qurum 2021-ci il Formula 1 yarışlarına öz pilotunu çıxarmaq fikrindən imtina etməyib.

Komandanın rəsmi saytında akademiya direktorunun aşağıdakı sözləri yer alıb: "Əsas məqsədin çempionatda qələbə qazanmaq olduğu aşkardır. Çünki debütantlar üçün qələbə qazanmaq hər il daha çətin olur. Demək, 2020-ci ildə biz özümüzün təcrübəli heyətimizlə daha yaxşı vəziyyətdə olacağıq. Başlıca hədəfimiz 2021-ci il Formula 1 mövsümündə öz akademiyamızdan pilot çıxarmaq olub, bu səbəbdən irəlidə bizi çox gərgin iş gözləyir. Əminəm ki, bunun öhdəsindən gələcəyik. Növbəti il bizim akademiyanın hücum ili olacaq.



Biz çempionatlarda qələbə qazanmağa çalışırıq və ən yaxşı gənc istedadların "Renault" ilə əməkdaşlıq etmək istəməsi üçün öz proqramımızın nüfuzlu olmasına səy göstəririk. Növbəti mövsümü səbirsizliklə gözləyirəm, çünki gərgin il olacaq".

# FUTBOL

## ÇL:1/8 final mərhələsində eyni səviyyəli rəqiblər

Dünən İsveçrənin Nyon şəhərində UEFA Çempionlar Liqasının 1/8 final mərhələsinin püşkatma mərasimi keçirilib.

Püşkün nəticələrinə əsasən, bu mərhələdə bərabər səviyyəli rəqiblər üz-üzə gələcək. Qitənin ən nüfuzlu klub turnirinin son qalibi "Liverpul" Madrid "Atletiko"su ilə qarşılaşacaq. Bu klublar arasında qalibin hansı komanda olacağı böyük maraqla gözlənilir. Fərqli oyun üslubuna malik olan tərəflərdən heç biri aşkar favorit sayılmır. Madrid "Real"ı "Mançester Siti" ilə görüşdə favorit görünsə də, İngiltərə klubunun da asan təslim olacağını təsəvvür etmək mümkün deyil. "Barselona"nın püşkdə bəxti gətirdi, desək, yanılmarıq. Çünki "Napoli" təcrübə baxımından rəqibdən geri qalır. Eyni zamanda İtaliya təmsilçisi son turlarda intizamsız çıxışı ilə diqqət çəkir. Fransa çempionu PSJ-ni Dortmund "Borussiya"sı ilə gərgin görüş gözləyir. Amma Almaniya klubu ötənilki kimi güclü görünmür. Bu mövsüm Çempionlar liqasında fəxri mükafat arzusunu həyata keçirmək istəyən "Yuventus"u isə Fransa sınağı gözləyir. Qrup mərhələsində elə də üstün görünməyən, lakin bu mərhələyə vəsiqə əldə edən "Lion" "Qoca Sinyora" üçün əsas rəqib deyil. Hər halda bütün bunlar ehtimallardır. Bütün suallara cavab qarşılaşmaların dan sonra aydınlıq gələcək.



Qeyd edək ki, 1/8 final mərhələsinin ilk oyunları 18-19 və 25-26 fevralda, cavab görüşləri 10-11 və 17-18 martda keçiriləcək.

**1/8 final, ilk oyunlar**

*18 fevral*

"Borussiya" (Dortmund) - PSJ
"Atletiko" (Madrid) - "Liverpul"

*19 fevral*

"Atalanta" - "Valensiya"
"Tottenhem" - "Leyptsiq"

*25 fevral*

"Çelsi" - "Bavariya"
"Napoli" - "Barselona"

*26 fevral*

"Real" (Madrid) - "Mançester Siti"
"Lion" - "Yuventus"

**Cavab oyunları**

*10 mart*

"Valensiya" - "Atalanta"
"Leyptsiq" - "Tottenhem"

*11 mart*

PSJ - "Borussiya"
"Liverpul" - "Atletiko"

*17 mart*

"Mançester Siti" - "Real"
"Yuventus" - "Lion"

*18 mart*

"Bavariya" - "Çelsi"
"Barselona" - "Napoli"



## Nikola Yurçeviç istefaya göndərildi

Ötən həftə AFFA-nın İcraiyyə Komitəsinin növbəti iclası olub. İclasda müzakirələrdən sonra 17 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandasının baş məşqçisi Vüqar Məmməd ilə müqaviləyə xitam verilib. Komandanın baş məşqçisi vəzifəsinə namizədlərin müəyyənləşdirilməsi üçün təkliflərin hazırlanması AFFA-nın Məşqçilər Komitəsinə və Texniki departamentə həvalə olunub.

Azərbaycan milli komandasının baş məşqçisi Nikola Yurçeviç ilə də müqavilə dayandırılıb. Qarşılıqlı razılıq əsasında AFFA milli komandaya yeni baş məşqçi axtarışına başlamaq, Nikola Yurçeviç isə yeni iş yeri axtarışına başlamaq hüququna malikdir.

İclasda "Klubların lisenziyalaşdırması üzrə vəsait"in növbəti buraxılışı üçün əlavə və dəyişikliklər qəbul olunub. Həmçinin AFFA-nın "Fair Play" mükafatı təsis edilib və Əsasnaməsinin hazırlanması Baş katibliyə tapşırılıb. "Azərbaycan Futbolunun Etik Kodeksi"nin hazırlanması da Baş katibliyə həvalə olunub. Bundan başqa, 2020-ci il yanvarın 8-də AFFA-nın növbədənkənar Konfransının çağırılması, Assosiasiyanın Nizamnaməsinə əlavə və dəyişikliklərlə bağlı təkliflərin hazırlanaraq, həmin konfransın gündəliyinə çıxarılması qərara alınıb.

"Qəbələ" klubunun sponsorları klubu maliyyələşdirməkdən imtina edəcəyi təqdirdə, lisenziyalaşdırma qaydalarına uyğun olaraq klubun təqdim etdiyi bank zəmanətinin aktivləşdirilməsi və məsələnin İcraiyyə Komitəsinin növbəti iclasında müzakirəyə çıxarılması qərarlaşdırılıb.

AFFA-nın Futbol Veteranları Fondunun Əsasnaməsinə uyğun olaraq, Elbrus Abbasov, Rafiq Əlizadə, Səmədağa Şıxlarov, Novil İsmayılov, Vahid Abbasov, Çingiz Haşımov, Əbdülqəni Nurməmmədov, Tahir Əmiraslanov, Şakir Qəribov, Oqtay Abdullayev, Səməd Qurbanov və İsgəndər Cavadova təqaüd verilməsi qəbul edilib.

İclasda "Elit məşq" kitabı, Gəncə şəhər stadionunun ərazisində inşa olunmuş süni örtüklü yeni məşq meydanı və "Avro-2020"nin Bakıda keçiriləcək oyunlarına hazırlıq prosesi ilə bağlı məlumat verilib.

Həmçinin Premyer Liqa klublarına uşaq futbolu üçün UEFA-dan ayrılmış maliyyə vəsaiti ilə əlaqədar hesabat təqdim edilib.

Nəticəsi şübhə doğuran, "danışılmış" oyunlarla bağlı xüsusi komissiyanın hazırladığı hesabat İcraiyyə Komitəsinə təqdim olunub. Hesabata əsasən, İcraiyyə Komitəsi müvafiq qərarların qəbulu üçün İntizam Komitəsinə müraciət edib.

## Püşkatmadan sonra tərəflər rəqib barəsində nə düşünür?

*UEFA Çempionlar Liqasının püşkatma mərasimindən sonra həmkarlarımız iştirakçı komandaların nümayəndələri ilə görüşüb, püşklə bağlı fikirlərini öyrəniblər. "Olimpiya dünyası" rəsmilərin və komanda üzvlərinin açıqlamalarından maraqlı məqamları oxucularına təqdim edir.*

***Markus Kresxe***
***("Leyptsiq" klubunun idman direktoru):***

- Hiss etmişdim ki, bu mərhələdə bəxtimizə güclü komanda çıxacaq. Bütün rəqiblər güclüdür. Lakin İngiltərə təmsilçisi ilə oyun fərqli olacaq. Növbəti mərhələyə keçmək üçün biz "Tottenhem"ə qarşı bütün qüvvəmizi səfərbər edəcəyik.

***Cennaro Qattuzo***
***("Napoli" klubunun baş məşqçisi):***

- Böyük rəqib, inanılmaz oyun, iki cəlbedici sınaq! "Barselona" ilə qarşılaşmalara çəkinmədən hazırlaşacağıq. Hesab edirəm ki, məğlubedilməz rəqib yoxdur.

***Juninyo Pernambukano***
***("Lion" klubunun keçmiş yarımmüdafiəçisi):***

- "Lion" iki görüşün hər birində mükəmməl oyun nümayiş etdirməlidir. Müdafiəni planlaşdırıb, hücumda oynasa, mənim keçmiş komandam cütün qalibi olmaq iqtidarındadır. Bütün komanda ilə müdafiə olunmalıyıq. Sadəcə, təşəbbüsü əldən vermək lazım deyil."

***Emilio Butraqenyo***
***("Real" klubunun idman direktoru):***

- "Mançester Siti" ilə qarşılaşma Çempionlar Liqasının bu mərhələdə ən maraqlı görüşü olacaq. "Mançester Siti" əla bir komandadır. Amma "Real" bu turnirin dəfələrlə qalibidir. Burada güc deyil, təcrübə öz sözünü deyəcək. Futbolçularımız bu matçın əhəmiyyətini yaxşı başa düşürlər.

***Joze Mourinyo***
***("Tottenhem" klubunun baş məşqçisi):***

- Avropanın ən güclü klublarından birinə qarşı çıxış edəcəyik. Bütün görüşləri böyük hesablı qələbələrlə başa vururlar. "Tottenhem" keçən il yarımçıq qoyduğu işi tamamlamaq istəyir. Çünki burada mən varam.

***Antonio Perkassi***
***("Atlanta" klubunun prezidenti):***

- "Valensiya" bəxtimizə çıxa biləcək ən yaxşı variantlardan biri idi. Püşk bizi daha çətin rəqiblə üz-üzə qoya bilərdi. Debüt çıxışımızda mübarizəni davam etdirməliyik.

***Manuel Noyer***
***("Bavariya" klubunun qapıçısı):***

- Biz püşkatmanı bütün komanda ilə birlikdə izlədik. Londondakı oyunu səbirsizliklə gözləyirik. Biz bu şəhərdə bir neçə maraqlı anlar yaşamışıq. Əlbəttə, 2012-ci ilin Münhendə keçirilən final oyunu da yada düşür. "Çelsi" çox təhlükəli bir rəqibdir və ona çox ciddi yanaşmalıyıq.



## UEFA Avropa Liqası: "Ayaks", "İnter", "Zalsburq"un qaliblərə qarşı döyüşü

UEFA Çempionlar Liqasının püşkatma mərasimindən bir saat sonra Avropa Liqasında 1/16 final mərhələsində də cütlüklər müəyyənləşib.

Tədbirdə Avropa Liqasının qruplarından ilk iki yerin sahibi və Çempionlar Liqasında qrup üçüncüləri kimi vəsiqə əldə edən 32 komanda iştirak edib. Türkiyənin yeganə təmsilçisi "Başakşehir" "Sportinq"ə (Portuqaliya) rəqib olub. A qrupunda mübarizə aparmış "Qarabağ"ın rəqiblərindən "Sevilya" bu mərhələdə "CFR Kluj" (Rumıniya), APOEL isə "Bazel"lə (İsveçrə) qarşılaşacaq. Bundan başqa UEFA Çempionlar Liqasında uğursuz çıxış edən iki klub - "Şaxtyor"la "Benfika" üz-üzə gələcəklər. ÇL-də bu dəfə bəxti gətirməyən "Ayaks" "Xetafe" səddini keçməli olacaq.

Ümumilikdə, azarkeşləri qitənin ikinci böyük klub turnirində maraqlı qarşılaşmalar gözləyir.

Qeyd edək ki, bu mərhələnin ilk oyunları gələn il fevralın 20-də, cavab görüşləri fevralın 27-də keçiriləcək.

***Avropa Liqası***
*1/16 final*

"Vulverhempton" (İngiltərə) - "Espanyol" (İspaniya)

"Sportinq" (Portuqaliya) - "Başakşehir" (Türkiyə)

"Xetafe" (İspaniya) - "Ayaks" (Hollandiya)

"Bayer" (Almaniya) - "Portu" (Portuqaliya)

"Kopenhagen" (Danimarka) - "Seltik" (Şotlandiya)

APOEL (Kipr) - "Bazel" (İsveçrə)

"CFR Kluj" (Rumıniya) - "Sevilya" (İspaniya)

"Olimpiakos" (Yunanıstan) - "Arsenal" (İngiltərə)

"AZ Alkmar" (Hollandiya) - LASK (Avstriya)

"Brügge" (Belçika) - "Mançester Yunayted" (İngiltərə)

"Ludoqorets" (Bolqarıstan) - "İnter" (İtaliya)

"Ayntraxt" (Frankfurt, Almaniya) - "Zalsburq" (Avstriya)

"Şaxtyor" (Ukrayna) - "Benfika" (Portuqaliya)

"Volfsburq" (Almaniya) - "Malmö" (İsveç)

"Roma" (İtaliya) - "Gent" (Belçika)

"Reyncers" (Şotlandiya) - "Braqa" (Portuqaliya)



Dünya-idmanı

# Ronaldodan azarkeşə sərt reaksiya

Çempionlar Liqasının "Yuventus" və "Bayer" komandalarının görüşündən sonra meydana çıxan azarkeş Kriştianu Ronaldonu özündən cıxarıb. "Yuventus"un portuqaliyalı hücumçusu ilə şəkil çəkdirmək istəyən fanat futbolçunun boynundan sıxaraq, özünə yaxınlaşdırmağa çalışıb. Azarkeşin belə sərt hərəkəti Ronaldonun qəzəbinə səbəb olub. O, həmin şəxsdən uzaqlaşıb. Daha sonra mühafizəçilər həmin azarkeşi meydandan kənarlaşdırıblar. Qeyd edək ki, Ronaldonun da fərqləndiyi qarşılaşma "Yuventus" klubunun 2:0 hesablı qələbəsi ilə başa çatıb.



## UFC çempionu Maykl Cordana müraciət edib



Yüngül çəki dərəcəsində UFC çempionu Həbib Nurməhəmmədov basketbol məşqi keçirdikdən sonra əfsanəvi amerikalı oyunçuya müraciət edib.

"Bu oyunu çox sevirəm. Maykl Cordan, hardasan?", - deyə 31 yaşlı boksçu zaldakı məşqdən paylaşdığı videonun altında yazıb.

## Naməlum şəxs Aleksandr Plüşenkoya hədə-qorxu gəlir

İkiqat Olimpiya çempionu Yevgeniy Plüşenko və prodüser Yana Rudkovskayanın oğlu Aleksandr Plüşenkonun sağlamlığı və həyatına təhdidlərlə bağlı cinayət işi açılıb. Təhdidlərdən sonra evinin və Plüşenko adına Fiqurlu Konkisürmə Akademiyasının mühafizəsi gücləndirilib. Altı yaşlı firuqlu konkisürənin ünvanına ilk təhdidlərin gəlməsi noyabr ayından başlayıb. Naməlum azarkeş sosial şəbəkələr vasitəsi ilə idmançını ölümlə təhdid edib.



*Üfüqi:*

1. Pekin - 2008 Yay Olimpiya Oyunlarında futbol yarışlarının qalibi 4. "Baltimor güləşi" ...Felps, 5. NHL-də çıxış edən komanda, 6. Almaniyada şəhər, 7. Mübarizənin sonu, 9. Stolüstü idman növü, 10. Formula 1 yarışlarında həyatını itirən pilot, 11. PSJ-nin hücumçusu, 13. Ekvador çempionatında çıxış edən klub, suda yaşayan canlı, 15. Şahmatda gediş, 16. Üzgüçülükdə üsul və növ

*Şaquli:*

2. Dağadırmanma, 3. Sürətli məşq prosesi, fiziki hərəkətlər toplusu, 8. Ən çox qol vuran futbolçulara belə müraciət olunur, 12. Avarçəkmədə növ, 14. Badminton oynamaq üçün idman ləvazımatı 17. Bilyard çubuğu



# Lüis Hamilton qəza törədib

"Mersedes"də çıxış edən Formula 1 üzrə 6 qat dünya çempionu Lüis Hamilton "Yamaha" markalı motosikleti əzib. Motosiklet 7 qat dünya çempionu Valentino Rossiyə məxsus olub. Belə ki, Hamilton və Rossi İspaniyanın Valensiya şəhərindəki avtodromda reklam tədbiri zamanı nəqliyyat vasitələrini müvəqqəti dəyişdiriblər. Britaniyalı pilot Valentino Rossinin motosikleti ilə qəza törədib. Hadisə nəticəsində xəsarət alan olmayıb.



## Türk və fransız azarkeşləri arasında kütləvi dava

Parisin mərkəzində "Park de Frens" stadionunun yaxınlığında PSJ və "Qalatasaray" oyunundan əvvəl hər iki klubun azarkeşləri arasında qarşıdurma baş verib. Məlumata görə, polis "Qalatasaray" azarkeşlərini gözyaşardıcı qazdan istifadə edərək, hadisə yerindən uzaqlaşdırıb. Paris polisləri küçələri azarkeşlərdən təmizlədikdən sonra yerdə döyülmüş və tamamilə çılpaq bir adama rast gəliblər.

Qeyd edək ki, oyunu izləmək üçün Parisə təxminən 1500-ə yaxın "Qalatasaray" azarkeşi gəlib. PSJ nümayəndələri biletlərin satışı zamanı Fransa və Türkiyə komandalarının azarkeşlərini müxtəlif hissələrdə əyləşdiriblər.

Xatırladaq ki, PSJ və "Qalatasaray" komandaları arasında matç Fransa təmsilçisinin 5:0 hesablı qələbəsi ilə başa çatıb.

olimpnews.az - sizin saytınız




Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.